DOI: https://doi.org/10.36719/2706-6185/33/61-64

**Günay İsmayılova**
Naxçıvan Dövlət Universiteti
ismayilovag670@gmail.com

# MUSİQİ TƏLİMİNİN TƏRBİYƏEDİCİ İNKİŞAFI

**Xülasə**

Pedaqogikanın əsas prinsiplərindən biri təlimin tərbiyəedici prinsipidir. Musiqi pedaqogikasının öyrəndiyi sahələrdən biri də tərbiyə problemləridir. Başqa sözlə desək musiqinin imkanlarından, təsir gücündən, bədii ifadə vasitələrindən istifadə edərək musiqi vasitəsilə uşaqların həm də tərbiyəsinə, daha dəqiq desək bədii tərbiyəsinə nail olmaqdır. Bu tərbiyə isə estetik tərbiyənin tərkib hissələrindən biri olan tərbiyədir. Musiqi tərbiyəsi ifadəsinin geniş yayılma səbəblərindən biri də çoxlarının ümumiyyətlə musiqi tərbiyəsinin mahiyyətini, məqsəd və vəzifələrini lazımınca düzgün başa düşməmələridir. Məhz elə bunun nəticəsidir ki, hətta musiqi pedaqogikası sahəsində çalışan bir çoxları musiqi təlimi, musiqi təhsili, musiqi qabiliyyəti, musiqi bacarıq və vərdişləri və s. bu kimi musiqi terminlərinin daşıdığı mənanı lazımınca dərk etmirlər. Musiqi vasitəsilə tərbiyə musiqi təlimi və musiqi təhsili prosesində milli, eləcə də bəşəri musiqidən müxtəlif formalarda istifadə yolu ilə uşaqlara nəcib mənəvi sifətlər aşılamaq, onların musiqi haqqında lazımi məlumata, bilik, bacarıq və vərdişlərə yiyələnmələridir. Təlim prosesində fənnin və keçdiyi mövzunun imkanları dairəsində şagirdlərə xalqlar dostluğu, vətənpərvərlik hissləri aşılamalı, onları vətənə layiq insanlar kimi tərbiyə etməlidir. Musiqi əsərlərinin düzgün seçilməsi, onların ideyasının tərbiyənin məqsədinə uyğun olması musiqi dərslərinin tərbiyəedici rolunun artırılmasında mühüm məsələdir. Məktəblilərin tərbiyəsi prosesində istifadə olunan musiqi materialı Azərbaycan bəstəkarlarının mahnılarından, klassik bəstəkarların əsərlərindən və xalq musiqisindən ibarətdir.

***Açar sözlər:*** *musiqi təlimi, musiqi dərsləri, melodiya, mahnı, musiqi əsərləri, tərbiyəedici xarakter, musiqi alətləri*

**Gunay Ismayilova**
Nakhchivan State University
ismayilovag670@gmail.com

## Educative development of music education

**Abstract**

One of the main principles of pedagody is the educational principle of training. One of the areas studied by music pedagogy is educational problems. In other words, by using the possibilities and influence of music as means of artistic expression, it is to achieve the education of children through music, or more precisely, artistic education. This education is one of the components of aesthetic education. One of the reasons for the widespread use of the term music education is that many people do not understand the essence, goals and tasks of music education in general. It is the result of this that even many people working in the field of music pedagogy do not properly understand the meaning of music terms such as music training, music education, musicial ability, musical skills and habits, etc. Education through music in the process of music training and music education is to inculcate noble moral qualities in children through the use of national and human music in various forms. It is their acquisition of necessary information, knowledge, skills and habits about music. In the training process, students should be instilled with the feelings of friendship and patriorism within the scope of the subject and the subject they are studying, and should educate them as people worthy of their homeland. The correct selection of musical works, their idea matching the purpose of education is an important issue in increasing the educational role of music lessons. The musical

material used in the process of education of schoolchildren consists of songs by Azerbaijani composers, works of classical composers and folk music.

***Keywords:*** *music training, music lessons, melody, song, musical works, educational character, musical instruments*

## Giriş

Pedaqogikanın əsas prinsiplərindən biri təlimin tərbiyəedici prinsipidir. Təlim prosesində fənnin və keçdiyi mövzunun imkanları dairəsində şagirdlərə xalqlar dostluğu, vətənpərvərlik hissləri aşılamalı, onları vətənə layiq insanlar kimi tərbiyə etməlidir.

Musiqi dərsləri şagirdlərin bədii zövqünü inkişaf etdirir. Burada hər mahnı, hər melodiya şagirdlərdə Vətənə məhəbbət, cəsurluq, qoçaqlıq, qəhrəmanlıq, doğruçuluq, əqidə saflığı, əməyə münasibəti və beynəlmiləlçilik kimi müsbət keyfiyyətlər aşılayır. Deməli, musiqi təlimi tərbiyə işini kompleks şəkildə həyata keçirməyə imkan verən əsas vasitələrdəndir.

Musiqi müəllimi bu istiqamətdə nə edə bilər? Musiqi müəlliminin istifadə etdiyi dərs material musiqi əsərləridir. Musiqi əsərlərinin düzgün seçilməsi, onların ideyasının tərbiyənin məqsədinə uyğun olması musiqi dərslərinin tərbiyə edici rolunun artırılmasında mühüm məsələdir. Məktəblilərin tərbiyəsi prosesində istifadə olunan musiqi materialı Azərbaycan bəstəkarlarının mahnılarından, klassik bəstəkarların əsərlərindən və xalq musiqisindən ibarətdir (Məmmədova, 2009).

Xalqın yaradıcı əməyini, adamların birliyini tərənnüm edən mahnıların böyük tərbiyəvi əhəmiyyəti vardır. Bu mahnıların ideya və estetik təsiri altında uşaqlarda tezliklə böyüyür öz ata və analarına kömək etmək, həyatda fəal iştirak etmək arzusu yaradır. Vətənin gözəlliyinin və qüdrətini tərənnüm edən, onun təbiətindən, onun təbiətindən ucsuz - bucaqsız çöllərindən meşələrindən kür sulu çaylarından bəhs edən mahnıların oxunması və dinlənilməsi məktəblilərdə və təni sevmək, onun təbii sərvətlərini qorumaq və artırmaq qayğısına qalmaq kimi mühüm əxlaqi keyfiyyətlər formalaşdırır.

Elmin, texnikanın, mədəniyyətin son dərəcə surətdə inkişaf bir dövrdə, yüksək şüurluluğunu, incə zövqü, mənəvi zəngliyi, əxlaqi saflığı, fiziki kamilliyi ahəngdar surətdə özündə birləşdirən yeni insan tərbiyə etməyi ön plana çəkmişdir. Belə şəxsiyyətlərin yetişdirilməsi tərbiyənin bütün tərkib hissəsinin (əqli, əxlaqi, ideya-siyasi, fiziki, estetik, əmək tərbiyəsi və s) birləşdirən vahid bir prosesdir. Bu, o deməkdir ki, tərbiyənin bütün komponentləri birlikdə, əlaqəli şəkildə həyata keçirilməsə şəxsiyyətin hərtərəfli inkişafı təmin edilə bilməz (Paşayev, Rüstəmov, 2007).

Musiqi dərslərində öyrədilən mahnı və melodiyalar təkcə şagirdlərin estetik tərbiyəsinə deyil, həm də əxlaqına müsbət təsir edir. Hər bir mahnı öz mövzusuna görə tərbiyəedici xarakterə malik olur.

Şən və gümrah xarakterli mahnılarda (A.Sultanovanın “Balaca dirijor”, O.Zülfüqarovun “Mən ovcuyam” və s) müxtəlif əmək prosesləri təsvir edilir. Bu mahnılar şagirdlərin fəallığını artırır, onlarda ictimai-faydalı əməyə, zəhmətkeş insanlara hörmət hissi aşılayır. Məktəblilərin repertuarında geniş yer tutan xoşbəxt uşaqlıq haqqında, lirik, rəqs xarakterli və məzəli mahnılar onları musiqidə olan 3 janr ilə marş, mahnı və rəqslə tanış edir. Hər bir mahnı eyni zaman da bir neçə komponentini özündə birləşdirir. Elə O.Zülfüqarovun “Mehdi” mahnısını götürək. Mahnı estetik tərbiyə baxımından oynaq, bədii zövqə yatımlıdı. Mahnıda çox güclü vətənpərvərlik hissləri vardır (Mehdizadə, 1982).

Bakıda doğuldun, sevdin Xəzəri,
Qəlbini oxşadı Vətən çölləri,
Sevdin uşaqlıqdan sən bu elləri,
Ana torpağını qorudun Mehdi!
Arzun sular kimi durudur Mehdi!

Burada Mehdini boya-başa çatdıran ana torpağını, ana Vətənini sevməsi və onu düşmənlərdən qoruması tərənnüm olunur. Mahnıda çox böyük emosional təsir gücünə malik olan qəhrəmanlıq, qoçaqlıq motivləri diqqəti cəlb edir.

Düşmən ordusu ilə tək döyüşəndə,
Babəki hiss etdin yanında Mehdi!
Koroğlu qanı var qanında Mehdi!

Oynaq melodiya altında Mehdinin Babəklə, Koroğlu ilə müqayisəsi şagirdlərdə cəsurluq, igidlik kimi müsbət keyfiyyətlər aşılayır. Bundan başqa mahnı eyni zamanda bizə qarşı apardığı mübarizəni xatırladır. Bu da şagirdlərin beynəlmiləl tərbiyəsinə müsbət təsir göstərir.

Azərbaycan bəstəkarları uşaqlar üçün ildən-ilə daha maraqlı mahnılar yaradırlar. Bununla əlaqədar musiqi müəllimi proqramda olan köhnə mahnıları yeniləri ilə əvəz etməlidir. Musiqi dərsinin hər bir mərhələsi müəyyən tərbiyəedici xarakterə malikdir. Yeni mahnının öyrədilməsi mərhələsində şagirdlərə yeni-yeni keyfiyyətlər aşılanır (Kazımov, Həşimov, 1996).

Deməli, proqramda olan klassik bəstəkarların əsərləri, xalq musiqisi dəyişmədiyi halda uşaq mahnıları dəyişdirilə bilər. Yəni müəllim ideya-siyasi və estetik tərbiyənin müasir tələblərinə cavab verən yeni mahnı əldə edərsə ondan mütləq təlim prosesində istifadə etməlidir. Məktəblərdə keçirilən və musiqi ilə müşayiət edilən müxtəlif tədbirlər-bayramlar,ədəbi-bədii gecələr şagirdlərin ideya-siyasi və əxlaq tərbiyəsində mühüm rol oynayır. Təntənəli bayram əhvali-ruhiyyəsi, bayram proqramının ideyaca düzgün tərtib edilməsi, onun ifadəliliyi, emosionallığı məktəblilərə müsbət təsir göstərir. Bayramın məzmunu və ideyası onların şüuruna asanlıqla daxil olaraq dərin iz buraxır. Hər bir bayramın proqramında musiqi əsas yer tutur. Ona görə də proqram tərtib edilərkən məktəblilər salona daxil oan zaman səslənən marşdan tutmuş ifa edilən mahnılara kimi bütün musiqi nömrələri nəzərdən keçirilməli və yalnız müasir tələblərə cavab verə bilən məzmunlu əsərlər saxlanmalıdır. Musiqi dərslərində məktəblilər bu tipli marşlara diqqətlə qulaq asırlar və belə musiqi nümunələrini çox xoşlayırlar. Lakin bu növ marşları onlar "oyuncaqların marşı" hesab etdiklərindən bayram konsertlərində belə musiqinin səslənməsi təntənəli əhvali-ruhiyyə yarada bilmir. Bayrama hazırlıq prosesində şagirdlər bayramın məzmunu haqqında söhbətdə fəal iştirak edir və onun bədii tərtibatına kömək göstərirlər. Onlar müəllimin rəhbərliyi ilə bayram konsertinin proqramına daxil edilərək musiqi nümunələrini müzakirə və bəzən də bayrama aid xüsusi bir mahnının öyrənilməsi qərarına gəlirlər. Bayram konsertlərinin proqramlarının tərtibində məktəblilərin iştirk etməsi onları fəallaşdırır, bayramın məzmunu və ideyası ilə yaxından tanış olmağa kömək edir. Məktəblilər bayram konsertinin proqramına bəstəkar U.Hacıbəyovun "Marşını" daxil etmək qərarına gəldilər. Onların fikrində F.Əhmədovun "Marşı" oyuncaq marşı xarakterindədir, M.Əhmədovun "Marşı" isə ümumiyyətlə marşdır. Bəstəkar M.Əhmədovun Marşı təntənəli səslənsədə məktəblilərə U.Hacıbəyovun "Marşı" daha yaxındır (Xəlilov, 1992).

Musiqi əsərlərinin dinlənilməsi mərhələlərinin ayrı-ayrılıqda geniş tərbiyə edici imkanları vardır. Əgər müəllim mahnının ilk səsini təyin etmədən onun öyrədilməsinə başlayarsa bir tərəfdən mahnını dərslikdə tələb olunduğu kimi, düzgün öyrədə bilməyəcək, digər tərəfdən isə şagirdlərin səs cihazları təhlükədə qalacaqdır.

Bu kiçik nöqsan şagirdlərin inkişafına pis təsir göstərir. Onlar həvəsdən düşür, Bədii tərbiyə sahəsində tamamilə passivləşirlər. Göründüyü kimi, şagirdlərin estetik tərbiyəsinin inkişafı üçün yeni problemlərlə əlaqədar qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində bəzi müəllimlər köhnə təlim metodlarından istifadə edirlər ki, bu da ümumi işimizin müvəffəqiyyətli həllinə mənfi təsir edir.

Musiqi müəllimləri dərsin keyfiyyətini daha da yüksəltmək üçün müvafiq əyani vasitələrdən, texniki vasitələrdən, ən başlıcası isə musiqi adətlərindən ustalıqla istifadə etməlidirlər. Bəzən müəllim materialı yaxşı aydınlaşdırır, lakin musiqi alətindən istifadə etmir. Bu isə dərsin olduqca maraqsız və sönük keç məsinə səbəb olur. Bu bir həqiqətdir ki, dərsin məzmunlu keçməsində musiqi alətinin rolu çox böyükdür. Musiqi alətlərində ifaçılıq qabiliyyətinə və musiqi savadına

malik olmayan müəllimlər mahnının öyrədilməsində, musiqi savadı haqqında məlumatın verilməsində və musiqi əsərlərinin dinləməsinin təşkilində ciddi səhvlərə yol verirlər. Ona görə də şagirdlər yuxarı sinifə keçdikdən sonra musiqi müəllimləri böyük çətinliklərlə qarşılaşırlar (Qədimova, 2007).

Musiqi dərsləri şagirdləri həyacanlandıran hisləri ifadə etmək üçün böyük imkanlara malikdir. Müəllim hər bir mahnının məzmununu müasir həyatla əla qələndirə bilər ki, bunun da məktəblilərin ideya siyasi tərbiyəsində böyük əhəmiyyəti vardır. Məktəblilərin ideya tərbiyəsində böyük əhəmiyyətə malik olmasına baxmayaraq məktəb praktikasında onlardan demək olar ki, az istifadə olunur. Bu cür mahnıların geniş formada tədrisi şagirdlərdə mübarizlik, cəsarət lilik, qəhrəmanlıq və humanizm kimi əxlaqi keyfiyyətlərin yaranmasına səbəb olur (Azərbaycan Respublikası məktəblərinin təhsil standartları, 2000).

Musiqi və nəğmə dərslərilə əlaqədar metodik kömək göstərirlər. Bu məqsədlə onlar proqramda nəzərdə tutulmuş bəzi çətin mahnıların öyrənilməsini əyani olaraq nümayiş etdirir (həmin mahnıların notlarından istifadə etmək qaydaları aydınlaşdırılır), musiqi alətindən istifadə etməyin yollarını öyrədir, musiqi savadı barədə bəzi metodik göstərişlər verir, habelə musiqi aləmində olan yeniliklər (yeni musiqi əsərlərinin dinlənilməsi və onlardan musiqi dərslərində istifadə olunmasına aid söhbətlər aparılır) barədə məlumatlar verilir. Bu təşəbbüs ibtidai siniflərdə nəğmə və musiqi dərslərinin yüksək səviyyədə keçməsinə və şagirdlərin estetik tərbiyəsinə kömək edir. Dərsin bütün mərhələləri ilə yanaşı, musiqi savadına və musiqi ədəbiyytına aid məlumatların verilməsinə də xüsusi səy göstərir. O, "not sətiri", "not açarları", "do-re-mi-fa-sol-lya-si", "bekar", "nöqtəli notlar", "bütöv not" və "yarım not","çərək not", "səkkizlik not", "onaltılıq notların yazılışı", "nöqtəli pauza" adlı əyani vəsaitlər hazırlanmalı bir sıra görkəmli bəstəkarların portretlərini əldə etməli və onların yaradıcılıqları əks olunmuş lövhələr düzədilməlidir.

Bu metodla şagirdlərə musiqi savadına, musiqi ədəbiyyatına aid məlumatarın verilməsinə də az vaxt sərf olunur və keçilən mövzu yaxşı mənimsənilir (Aslanov, 1987).

## Nəticə

Məqalədə belə nəticəyə gəldik ki, musiqi təlimi tərbiyə işini kompleks şəkildə həyata keçirməyə imkan verən əsas vasitələrdəndir. Müəllim hər bir mahnının məzmununu müasir həyatla əlaqələndirə bilər ki, bunun da məktəblilərin ideya-siyasi tərbiyəsində böyük əhəmiyyəti vardır. Musiqi dərsləri şagirdləri həyəcanlandıran hissləri ifadə etmək üçün böyük imkanlara malikdir. Musiqi dərslərində öyrədilən mahnı və melodiyalar təkcə şagirdlərin estetik tərbiyəsinə deyil, həm də əxlaqına müsbət təsir edir. Hər bir mahnı öz mövzusuna görə tərbiyəedici xarakterə malik olur. Dərsin keyfiyyətini daha da yüksəltmək üçün müvafiq əyani vəsaitlərdən, texniki vasitələrdən, ən başlıcası isə musiqi alətlərindən ustalıqla istifadə etməlidirlər.

## Ədəbiyyat

1. Məmmədova, İ. (2009). Musiqi pedaqogikası. Bakı: ABU.
2. Paşayev, Ə., Rüstəmov, F. (2007). Pedaqogika. Yeni kurs. Bakı.
3. Mehdizadə, M.M. (1982). Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı
4. Kazımov, N.M., Həşimov, Ə.Ş. (1996). Pedaqogika. Bakı.
5. Xəlilov, V.C. (1992). Azərbaycan ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişaf yolları. Bakı.
6. Qədimova, J. (2007). Musiqi və onun tədrisi metodikası. Bakı.
7. Azərbaycan Respublikası məktəblərinin təhsil standartları. (2000). Bakı.
8. Aslanov, A. (1987). Estetika aləmində. Bakı.

Göndərilib: 25.12.2023 Qəbul edilib: 06.02.2024